*S.Muxtarova. Heydər Əliyevin ideyaları müasir təhsil quruculuğunun əsası kimi // Əlyazmalar yanmır, 2023, №1 (16), s.21-25.*

UOT: 930.85

**Sevinc Muxtarova**
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: seva_mukhtarova@mail.ru*

# HEYDƏR ƏLİYEVİN İDEYALARI MÜASİR TƏHSİL QURUCULUĞUNUN ƏSASI KİMİ

**Xülasə**

Heydər Əlirza oğlu Əliyev Azərbaycan xalqının minillik arzu və istəklərini reallığa çevirən, ölkəmizi sivil dünyanın və Avropa ailəsinin üzvünə çevirə bilən yeganə lider olmuşdu. Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev hakimiyyətinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərmişdir. O, milli təhsil sisteminin inkişafı naminə bütün zəruri tədbirləri həyata keçirmişdir. Milli təhsil sisteminin müasirləşdirilməsi, yüksək mənəvi-əxlaqi keyfiyyətləri, savadı ilə fərqlənən ixtisaslı kadrların hazırlanması məsələləri Heydər Əliyevin fəaliyyətində prioritet məsələlərdən olmuşdur. Birinci rəhbərliyi dövründə 10 mindən artıq gənci keçmiş SSRİ respublikalarının ali məktəblərinə təhsil almağa göndərən Heydər Əliyev yüksək ixtisaslı və peşəkar kadrların hazırlanması məsələsinə ciddi önəm vermişdir. Bütün görülən işlərin nəticəsidir ki, Azərbaycan təhsili son illər yeni inkişaf dövrünə qədəm qoymuşdur və bu dövrün əsas xüsusiyyəti ondan ibarətdir ki, təhsil bütövlükdə kompleks şəkildə inkişaf etdirilir.

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan Respublikası, təhsil, islahatlar, inkişaf*

**Giriş**

*Dünya ölkələrinin tarixi inkişafı sübut edir ki, onların inkişafında, xalqlarının tanınmasında, ölkələrinin dünya ölkələri içərisində nüfuzlu yer tutmasında müstəsna rol həmin xalqların yetişdirdiyi liderlərə məxsusdur. Azərbaycana da belə bir xoşbəxtlik qismət olmuşdur ki, onun Heydər Əliyev kimi uzaqgörən, millətini, xalqını, dövlətini canından çox sevən və qiymətləndirən bir lider oğlu yetişmişdir.*

Heydər Əlirza oğlu Əliyev Azərbaycan xalqının minillik arzu və istəklərini reallığa çevirən, ölkəmizi sivil dünyanın və Avropa ailəsinin üzvünə çevirə bilən yeganə lider olmuşdur. Ömrünü bütövlükdə xalqının azadlığı və inkişafına sərf edən bu şəxsiyyət Ümummilli liderə çevrilərək nümunəvi həyat obrazı yaratmış, millətinə xidmətin ən yüksək səviyyəsini nümayiş etdirə bilmişdir. Onun fəaliyyətinin hər anı xalqın taleyüklü məsələlərinin həllinə sərf edilmiş, bütün sahələrdə dünyada ən qabaqcıl nə varsa, onların daha mütərəqqisi Ulu Öndər Heydər Əliyevin fəaliyyətində öz xalqı üçün daim diqqət mərkəzində olmuşdur.

Bütün fəaliyyəti və fərdi keyfiyyətləri ilə xalqına, millətinə, digər ölkələrin rəhbərlərinə, tanınmış siyasətçilərə nümunə olan Heydər Əliyev siyasət dünyasında bəşər tarixi üçün əvəzolunmaz, bacarığı, səriştəsi, uzaqgörənliyi, hadisələri hissetmə, duyma və düzgün qərarlarvermə qabiliyyətinə görə nadir şəxsiyyət olmuşdur. Ulu Öndər malik olduğu bu keyfiyyətlər sayəsində

Azərbaycanı siyasi, iqtisadi, ideoloji cəhətdən inkişaf etdirərək özünün arzu etdiyi səviyyəyə çatdırmışdır.

Ulu öndər Heydər Əliyev zaman-zaman qəbul etdiyi tarixi qərarları ilə, sözün əsl mənasında, yeniləşməkdə olan müstəqil Azərbaycan dövlətinin qurucusuna çevrildi. 1994-cü il sentyabrın 20-də ölkənin tarixində son dərəcə taleyüklü bir hadisə baş verdi. Azərbaycan dövlətinin və xalqının firavan və xoşbəxt həyatının zəmanətinə çevrilmiş, sürətli inkişafa və tərəqqiyə, müstəqilliyin dönməzliyinə və təhlükəsizliyinə təminat verən, neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı.

Məhz ulu öndərin qətiyyəti, iradəsi və cəsarəti sayəsində Azərbaycanın "qara qızılı" bu millətin ağ günlərinin tarixini yazmağa başladı. Ulu öndərin öz sözləri ilə desək: "Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün, eləcə də gələcəkdə xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir". Bu sözlərin müəllifi ölkəsinin karbohidrogen ehtiyatlarını strateji xammaldan böyük siyasətin, dünyada gedən inteqrasiya proseslərinin, milli təhlükəsizlik konsepsiyasının faktoruna çevirməyi bacardı. Tarixən ayrı-ayrı dövlətlər, eləcə də bütövlükdə bəşəriyyətə bir çox müsibətlər yaşatmış "qara qızıl" məhz ulu öndərin düşünülmüş, ağıllı taktiki addımları sayəsində dünyanın transmilli neft korporasiyaları Bakıda toplaşdı. Bir müddət sonra isə ümummilli liderin minbir zəhməti sayəsində Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri reallığa çevrildi ki, bunun da sayəsində bir vaxtlar çoxlarına xəyal kimi görünən "üç dəniz əfsanəsi" gerçəkləşdi. Beləliklə də, Azərbaycan dövləti regionda sülhün dayağına, qədim tarixə malik Bakı şəhəri isə əməkdaşlıq "paytaxt"ına çevrildi və ümummilli lider Heydər Əliyev Azərbaycan neftini Azərbaycan xalqının və dövlətçiliyinin prinsipial maraqlarına uyğun işlətmək kimi çətin bir missiyanın öhdəsindən bacarıqla gəldi [1].

Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovetlər İttifaqının bir çox başqa respublikalarında özünü aşkar hiss etdirdiyi halda, qorxmaz, cəsur, möhkəm iradə sahibi olan Heydər Əliyev Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və düşündüyünü tam ifadə edə bilmək, alt qatda isə milli-mənəvi ideala, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən bir şərait yaratmışdır.

Heydər Əliyevin başçılığı ilə 1969-82-ci illərdə Azərbaycandakı intibahı şərtləndirən amillərdən biri respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilməsi, gəncliyin ana dilində təhsilinə üstünlük verilməsi olmuşdur. Milli hərbçi kadrların hazırlanması da xalqın müstəqil gələcəyini görən Heydər Əliyevdən ötrü xüsusi əhəmiyyətli məsələ idi [6,s.16].

XX əsrin 70-ci illərindən 30 ildən artıq müddətdə Azərbaycanda iqtisadiyyatın, elmin, təhsil və mədəniyyətin dirçəlişi və dinamik inkişafı, eləcə də dövlət müstəqilliyinin möhkəmləndirilməsi, qısa bir zamanda Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuz qazanması bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev hakimiyyətinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərmişdir. O, milli təhsil sisteminin inkişafı naminə bütün zəruri tədbirləri həyata keçirmişdir. Milli təhsil sisteminin müasirləşdirilməsi, yüksək mənəvi-əxlaqi keyfiyyətləri, savadı ilə fərqlənən ixtisaslı kadrların hazırlanması məsələləri Heydər Əliyevin fəaliyyətində prioritet məsələlərdən olmuşdur.

Azərbaycan təhsili milli və ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında, xalqımızın tarixinə, milli ənənələrinə müvafiq şəkildə inkişaf etdirilmişdir. Azərbaycan Dövlət Təhsil siyasətinin əsas məqsədi milli təhsilimizin inkişafına imkan və şərait yaratmaqdan ibarət olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin milli təhsil quruculuğuna olan diqqət və qayğısı nəticəsində təhsilimiz qabaqcıl ölkələrin təhsil quruculuğundan, milli zəmindən və regional xüsusiyyətlərdən bəhrələnmiş, iqtisadi-sosial bazamız əsasında inkişaf etməyə başlamışdır [6,s.7].

70-80-ci illərdə Ulu öndərin Azərbaycana birinci rəhbərliyi dövründə təhsil müəssisələri şəbəkəsinin yaradılması və onların zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksək ixtisaslı mütəxxəsislərin hazırlanması gələcəkdə milli müstəqilliyimiz üçün zəruri intellektual zəmin yaratmışdır.

Gənclərin bilik səviyyəsinin daim yüksəldilməsi, onların gələcəkdə kamil mütəxxəsis və layiqli vətəndaş kimi formalaşması Ulu Öndərin daim diqqət mərkəzində olmuşdur. O, 1975-ci il avqustun 28-də Azərbaycandan kənarda təhsil almağa göndərilən tələbələr ilə görüşündə söyləmişdir: "Siz bu əsrin axrıncı onilliklərində və gələn əsrin əvvəllərində işləyəcəksiniz. O zaman elmi-texniki tərəqqi üfüqlərinin necə cazibədar olacağını bu gün təsəvvür etmək mümkündür. Sabahki gün sizə yeni, yüksək tələblər verəcəkdir. Əgər mütəxxəsis həqiqətən yaradıcı şəxsiyyətdirsə, o, sadəcə olaraq, zamanla ayaqlaşmalı deyil, həmişə zamanı bir qədər qabaqlamalıdır. Bu isə o deməkdir ki, daim öyrənmək lazımdır, buna görə də bilik, bacarıq, vərdiş bünövrəsi möhkəm olmalıdır" [2,s.120].

Heydər Əliyevin böyüklüyü ondadır ki, o, bütün fəaliyyəti boyu cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır. Təsadüfü deyildir ki, 1969-1982-ci illər Azərbaycan elmi və təhsilinin intibah dövrü hesab olunur. Ulu Öndərin şəxsi təşəbbüskarlığı ilə həmin illərdə 700-dən artıq məktəb binası tikilərək istifadəyə verilmişdir.

1969-cu ildə baş verən tarixi dəyişiklik-Heydər Əliyevin Azərbaycan Respublikasının siyasi rəhbəri vəzifəsinə gəlməsi bir çox başqa sahələrlə yanaşı, mənəvi-humanitar istiqamətin, o cümlədən də milli mədəniyyətimizlə bağlı elmi və mədəni-təşkilati fəaliyyətin canlanmasına səbəb oldu. Memarlıq, xalq musiqisi, folklor, etnoqrafiya, elm kimi sahələr xatırlanan mərhələdən etibarən əlahiddə bir qayğı və diqqətlə əhatələnməyə başladı. Heydər Əliyevin siyasi himayədarlığı və öndərliyi ilə həyata keçirilən bu ilkin tərpəniş uzunmüddətli bir mübarizə və mücadilənin əsasını qoyaraq, öncə Azərbaycan ziyalılarını, daha sonra isə bütün xalqı strateji məqsədlər üçün səfərbər etdi [5, s.72.].

Birinci rəhbərliyi dövründə 10 mindən artıq gənci keçmiş SSRİ respublikalarının ali məktəblərinə təhsil almağa göndərən Heydər Əliyev yüksək ixtisaslı və peşəkar kadrların hazırlanması məsələsinə ciddi önəm vermişdir. Heydər Əliyev bir sıra yeni ixtisaslar-informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və s. üzrə Azərbaycanda mütəxxəsis hazırlığının olmadığını nəzərə alaraq minlərlə azərbaycanlı gəncin Moskva, Kiyev, Leninqrad, Minsk və başqa şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərilməsini təmin etmişdir. Heydər Əliyev müsabiqədənkənar bu ali məktəblərdə oxumağa göndərilən gənclərin sayının ildən-ilə artırılmasına, onların təhsilinin Ümumittifaq büdcəsindən maliyyələşdirilməsinə nail olmuşdur [2,s.120].

1991-1993-cü illərdə respublikamızda hökm sürən ümumi böhranlı vəziyyət elm və təhsil sahəsində də əsaslı problemlərə gətirib çıxarmışdır. Azərbaycanın nüfuzlu alimləri, bütün həyatını təhsilə həsr etmiş adlı-sanlı müəllimlər xaricə üz tuturdu. Bu böhranlı vəziyyəti yalnız Ümummilli Lider Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışından sonra aradan qaldırmaq, elm və təhsil sahəsində dövlət siyasətinin mühüm istiqamətlərini müəyyənləşdirmək mümkün olmuşdur. Ulu Öndər tənəzzülün qarşısını almış, təhsilin öz məcrasına düşməsi, inkişafı üçün əlverişli iqtisadi şərait, hüquqi və mənəvi-əxlaqi mühit formalaşdırmışdır.

Heydər Əliyevin müstəqil Azərbaycanın təhsilinin inkişafındakı misilsiz xidmətləri ölkəmizin təhsil sistemində əsaslı islahatların başlanmasının əsasını qoymuşdur. Vaxtilə keşmiş Sovet İttifaqının rəhbərlərindən biri kimi bu super dövlətin təhsili bilavasitə onun nəzarətində olmuş, 1984-cü ildə keçirilən məktəb islahatına o, rəhbərlik etmişdir. Ulu Öndərin irəli sürdüyü təhsil konsepsiyasının əsasını müstəqilliyin daha da möhkəmləndirilməsi, demokratik və hüquqi dövlət quruculuğu prosesinin həyata keçirilməsi, ölkənin iqtisadi potensialının gücləndirilməsi kimi mühüm prinsiplər təşkil etmişdir [3, s. 10].

Təhsil hüququ 1995-ci il ümumxalq səsvermə yolu ilə qəbul edilmiş, Azərbaycan Konstitusiyasında hər bir vətəndaşın vacib hüquqlarından biri kimi elan olunmuşdur. Heydər

Əliyevin rəhbərliyi ilə 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası yaradıldı. Konstitusiyada hüquqların təminatı həyata keçirildi, konkret təhsil siyasəti formalaşdırıldı, təkmilləşdirildi, yeniləşdirildi, islahatlara intensiv hazırlıq işləri aparıldı. Heyder Əliyev 1998-ci ildə təhsil sahəsində İslahat Proqramının hazırlanması üçün xüsusi sərəncamla Dövlət Komissiyası yaratdı, dövlət komissiyası tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı. 1999-cu ildə ölkə prezidenti Proqramı imzaladı [6,s.32]

Heydər Əliyevin 30 mart 1998-ci il tarixində imzaladığı "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında"sərəncamda Azərbaycanın təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların həyata keçirilməsi, Avropa təhsil məkanına inteqrasiyanın təmin edilməsi, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi kimi mühüm vəzifələr qoyulmuşdur. Təhsil islahatının beynəlxalq təcrübəyə əsaslanan proqramı təhsilin inkişafında büdcə vəsaitlərinin artırılmasına və əlavə gəlir gətirən mənbələrdən istifadəyə geniş yer vermişdir [4].

Ümummilli liderimiz hərb sahəsində milli kadrların hazırlanmasında şərəfli xidməti olmuş, 70-ci illərdən başlayaraq hər il yüzlərlə gəncin nüfuzlu ali hərbi məktəblərə göndərilməsini təşkil etmişdir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratması və milli hərbi kadrların hazırlanmasına təkan verməsi onun uzaqgörən siyasətinin nəticəsi idi.

Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdrilməsi haqqında" 13 iyul 2000-ci il tarixli, "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 4 oktyabr 2002-ci il tarixli fərmanları və "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqram haqqında" 17 fevral 2003-cü il tarixli sərəncamı ilə islahatın sürətləndirilməsinə güclü təkan verdi.

Ümummilli liderimiz Heydər Əliyevin təhsilin inkişafına qayğısının bir təzahürü də təhsilin inkişafına ayrılan büdcə vəsaitinin ilbəil artması olmuşdur. 1995-ci ildə təhsilə ayrılan vəsait büdcənin 17 faizini təşkil edirdisə, 2002-ci ildə bu rəqəm 24 faizə yüksəlmiş, müəllimlərin əmək haqqı isə on dəfəyə yaxın artmışdır [2,s.21].

15 iyun 1999-cu il tarixdə Heydər Əliyev tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasında Təhsil İslahat Proqramı"nın əsas mahiyyətini təhsil sistemində islahatların təkamül yolu ilə, mərhələlərlə aparılması, tarixən formalaşmış zəngin, mütərrəqi ənənələrin və təcrübənin qorunub saxlanılması, dünya təhsil sisteminin Azərbaycanın milli xüsusiyyətləri nəzərə alınmaqla tətbiqi məsələləri təşkil edir. İslahatların həyata keçirilməsi nəticəsində təhsilin məzmunu yeniləşdirilmiş, yeni proqramlar və dərsliklər hazırlanmış, ayrı-ayrı təhsil sahələri və fənnlər üzrə standartların hazırlanması istiqamətində ciddi işlər görülmüşdür [1].

Ölkə başçısının 2001-ci il iyun ayının 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" fərmanı latın qrafikalı Azərbaycan əlifbasına keçilməsi, "Azərbaycan əlifbası," "Azərbaycan dili" gününün təsis edilməsi müstəqil dövlətimizin milli nailiyyətidir [6, s.30].

**Nəticə**

*Müasir Azərbaycan dövlətinin banisi, ölkəmizi dünyanın ən inkişaf etmiş dövlətləri səviyyəsinə çatdırmağı həyatının ən əsaslı amalı hesab edən, özünün zəngin idarəçilik təcrübəsi, qətiyyəti ilə bu məqsədin əldə edilməsinə çalışan Ulu Öndər Heydər ƏlİyevIn ideyaları, həyata keçirdiyi nəhəng quruculuq işləri onun layiqli davamçısı, yeni təfəkkürlü siyasətçi, möhtərəm prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.*

*Ölkə başçısının balanslaşdırılmış xarici və daxili siyasəti və bütövlükdə uğurlu fəaliyyəti nəticəsində iqtisadiyyatımızın sürətlə inkişafı təhsilin də inkişafı üçün mühüm təməl olmuşdur.*

*Təhsili Azərbaycanın davamlı inkişafının mühüm amillərindən biri sayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev fəaliyyətinin ilk günlərindən bu sahəni ölkənin daxili siyasətində prioritet istiqamət kimi götürərək onun inkişafına daim qayğı göstərir. Ölkə prezidenti haqlı olaraq qeyd edir ki, "yüksək təhsil səviyyəsi olmasa, gənclər ən mütərrəqi texnologiyalara yiyələnməsələr, həqiqətən, inkişaf etmiş dövlət qurmaq mümkün deyildir".*

*Bütün görülən işlərin nəticəsidir ki, Azərbaycan təhsili son illər yeni inkişaf dövrünə qədəm qoymuşdur və bu dövrün əsas xüsusiyyəti ondan ibarətdir ki, təhsil bütövlükdə kompleks şəkildə inkişaf etdirilir.*

**Ədəbiyyat siyahısı:**


1. Alıyev İ., Əsədov A. Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı // Xalq qəzeti. -12 dekabr, 2009.
2. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası: monoqrafiya. – Bakı:Şərq-Qərb,2019.-328 s.
3. Əlizadə Ə., Əliyev A. XX əsr Gəncənin görkəmli elm, mədəniyyət, partiya və dövlət xadimləri.-Bakı, 2003.
4. Hümbətov F. Azərbaycanda pedaqoji elmin təşəkkülü və problemləri.-Bakı, 1998.
5. Səmədov A. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı.-Bakı, 2000.
6. Səmədov A. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı .-Gəncə Dövlət Universiteti. –Gəncə, 2010. -494 s.


**Sevinj Mukhtarova**

**Heydar Aliyev's ideas as the basis of modern education construction**

Heydar Alirza oglu Aliyev was the only leader who could turn the millennial dreams and aspirations of the Azerbaijani people into reality and make our country a member of the civilized world and the European family. Heydar Aliyev, the founder of the independent state of Azerbaijan, paid special attention and care to the development of science and education at all stages of his rule. He implemented all necessary measures for the development of the national education system. The issues of modernization of the national education system, training of qualified personnel with high moral and ethical qualities and education were among the priority issues in Heydar Aliyev's activities. During his first administration, Heydar Aliyev, who sent more than 10,000 young people to study in higher schools of the former USSR republics, attached great importance to the training of highly qualified and professional personnel. As a result of all the work done, Azerbaijani education has entered a new period of development in recent years, and the main feature of this period is that education is being developed in a comprehensive manner.

***Keywords:*** *Heydar Aliyev, Republic of Azerbaijan, education, reforms, development*

Tarix üzrə elmlər doktoru
**Tahirə Həsənzadə** tərəfindən çapa tövsiyə olunmuşdur.